# *Amerikalı ekspert:* "Azərbaycanla Ermənistan arasında razılaşma Rusiyanın Cənubi Qafqazda təsirinin azalmasına imkan verəcək"

"Otuz ildən artıq müddətdə ilk dəfədir Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsi mümkün olub və mən düşünürəm ki, bu, olduqca əhəmiyyətlidir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Milli Müdafiə Universitetinin dosenti Stefan Bruks deyib. O bildirib ki, bu saziş Rusiyanın beynəlxalq miqyasda təcridinin növbəti əlaməti olacaq. "Demək istədiyim odur ki, Rusiya ilə Ermənistan arasında çox güclü əlaqələr var idi və rəsmi Moskva bu ölkədə qoşun yerləşdirib. Fikrimcə, Ermənistan Rusiyadan çox da razı deyildi. Belə ki, ən son müharibədə Ermənistan Rusiyadan istədiyi dəstəyi ala bilmədi. Ona görə də hesab edirəm ki, bu razılaşma Rusiyanın Qafqazda təsirinin azalmasına imkan verəcək", - deyə o vurğulayıb.

Amerikalı ekspert Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı ABŞ ilə əldə olunmuş razılaşmalara da toxunub və iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığa qoyulan məhdudiyyətlərin aradan qaldırıldığını yüksək qiymətləndirib. "ABŞ-nin Azərbaycanın ən yaxşı beş ticarət tərəfdaşından biri olduğu deyilir və bu saziş yəqin ki, bu imkanları daha da artıracaq. Anlaşma Azərbaycanı Naxçıvanla birləşdirəcək dəhlizdə ABŞ üçün iqtisadiyyat baxımından xüsusi imkanlar yaradır. Rusiya bu anlaşma ilə bağlı xarici müdaxilələrə qarşı xəbərdarlıq edib. Bu ölkənin Gürcüstanda, Ukraynada etdiklərini nəzərə alsaq, xarici müdaxilədən danışmasını çox ironik hesab edirəm", - deyə Stefan Bruks əlavə edib.

Azərbaycan.- 2025.- 15 avqust (№170).- S.8.